# Şagirdlərin peşəyönümü

**Yunis Allahverdiyev**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universitetinin dosenti*
**E-mail:** yunis-a.@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof., S.M. Quliyev,
ped.ü.f.d., dos., P.M. Həsənova

**Açar sözlər:** peşəyönümü, ixtisas, peşə, iqtisadiyyat
**Ключевые слова:** профориентация, специальность, профессия, экономика
**Key words:** professional orientation, profession, spesiality, economy

XX əsrin sonlarında respublikamızın dövlət müstəqilliyini və suverenliyini yenidən bərpa etməsi ölkəmizin siyasi, iqtisadi, sosial və mədəni həyatında yeni bir dövrün başlanğıcını qoydu. Ölkəmiz bazar iqtisadiyyatına keçib. Ona görə onun iqtisadi həyatında böyük dəyişikliklər yaranıb. Bu vəziyyət öz növbəsində təhsil sistemində, təlim-tərbiyə prosesinin məqsədi, vəzifələri və məzmunun da təkmilləşmənin aparılmasını tələb edir.

Təhsil sistemində yeniləşmənin uğurla getməsi üçün sovet təhsil sisteminin ideoloji-siyasi buxovlarından azad edib bəşəri təhsil sistemində dövlət siyasətinin əsas istiqamətləri onun fəaliyyət prinsipləri təhsilin məzmunu, məqsədi və strukturu müəyyənləşdirilməlidir.

Şagirdlərin peşə seçməyə hazırlanması təlim-tərbiyə prosesinin tərkib hissələrindən biri kimi məktəblərin qarşısında duran ən vacib məsələlərdən biridir. Mahiyyətinə görə dövlət, məzmununa görə sosial, nəticəsinə görə iqtisadi problem olan peşəyönümü müxtəlif elmlərin maraq dairəsində olsa da bu problem müasir dövrün ən mürəkkəb və təkmilləşdirilməyə ehtiyacı olan zəruri məsələ kimi pedaqoji-psixoloji mahiyyəti ilə bağlı olub, hər şagirdin öz maraq və qabiliyyətinə uyğun peşə və ixtisas seçməsi öz gələcək həyatını düzgün müəyyənləşdirməlidir.

İkinci aspekt isə bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq müxtəlif ixtisaslar üzrə işçi qüvvəsinə, beynəlxalq əmək bölgüsünə və əmək bazarının tələbatına uyğun olaraq mütəxəssis hazırlığının cari və perspektiv strukturunu və həcmini müəyyənləşdirməklə bağlıdır. Ona görə şagirdlərin peşə seçmə məsələlərinin uğurlu həlli onların sosiallaşmasına həm də cəmiyyətin kadrlara olan tələbatının ödənilməsinə səbəb olar. Peşəyönümü yeni problem deyil, lakin müasir dövrdə ona yeni yanaşma tələb olunur.

Şagirdlərin peşəyönümü sahəsində son illərdə bir sıra tədqiqat işləri aparılmış və maraqlı nəticələr alınmışdır. Lakin buna baxmayaraq indiki dövrün tələblərinə cavab verən tədqiqatlara daha çox ehtiyac var.

Yeni təhsil sisteminin uğurla getməsi üçün həll olunması vacib olan problemlərdən biri də şagirdlərin peşə seçməyə əsaslarının tədqiq edilməsi təşkil edir. Şagirdlərin peşə seçməyə hazırlanması müasir məktəbin qarşısında duran ən vacib məsələlərdən biridir. Peşə seçmənin elmi cəhətdən həlli müstəqil həyata başlayan gənclərin həyatda öz yerlərini düzgün tapmasına, peşənin, ixtisasın şagirdlərin arzu və istəklərinə uyğun olmasına səbəb olar və onların cəmiyyətimizin sosial, iqtisadi və mədəni həyatında daha fəal mövqe tutmasına gətirib çıxarar. Peşə və ixtisasların gənclərin maraq və meyllərinə, imkan və qabiliyyətlərinə uyğun seçməsi, onların gələcək həyat səviyyəsinə, şəxsi gəlirlərinin miqdarına, həm də istehsalatın

səmərəliliyinə və iqtisadi, artım tempinə təsir göstərər, milli iqtisadiyyatımıza daha çox gəlir gətirər. Şəxsiyyətin fəaliyyətini və fəallığını təmin edən dəyərlərin, qiymətləndirmə və özünüqiymətləndirmə göstəricilərinin formalaşması yeniyetməlik dövründə baş verir, şəxsiyyətin əsas göstəricilərinin formalaşması gənclik dövründə baş verir.

Yeni texnika və texnologiyaların tətbiqi peşəyönümü problemini müasir tələblər səviyyəsində həll etmək zəruriyyətini yaratmışdır. Bazar iqtisadiyyatına keçid və müasir şərait peşəyönümü işinin aparılmasında xalqımızın yaratdığı və min illər boyu yaşatdığı, unudulmaqda olan nadir və ənənəvi peşələr sahəsində uşaqlarda meyl, maraq və tələbatlar formalaşdırmağı, bu sahədə məktəblərdə, ailədə və məktəbdənkənar təlim-tərbiyə müəssisələrində şərait yaratmağı və hərəkətli iş aparmağı tələb edir.

Hər bir iqtisadi rayonun peşələrə olan cari və perspektiv tələbatının nəzərə alınması, tətbiq olunan peşələrin iqtisadi bazası, perspektivi, iş yeri, əmək haqqı səviyyəsi və s. haqqında məlumat aşılanması zəruriyyətini yaradır.

Şagirdlər peşələr haqqında ətraflı məlumata yiyələnmədiklərində onların peşə maraqlarının əhatəsi məhdudlaşır və bir çox peşələrdən xəbərsiz olurlar. Ona görə şagirdlərin peşə təsəvvürlərinin genişləndirilməsi çox vacibdir.

Xüsusi mülkiyyətçilik meylinin güclənməsi, şagirdlərin peşə maraqlarında və təsəvvürlərində əsaslı dəyişikliklər əmələ gətirir. Ona görə bunlar ciddi surətdə nəzərə alınmalı, məktəblərdə aparılan peşəyönümü işinin başlıca istiqamətləri müəyyənləşdirilməli, bu prosesdə yeni forma və metodlardan istifadə olunmalıdır.

Müasir sosial-iqtisadi həyatın təhlili göstərir ki, keçid dövrü seçiləcək peşənin maddi tərəfi ön plana keçir. İstər şagirdlər, istərsə də onların valideynləri daha çox elə peşə və ixtisaslara maraq göstərirlər ki, orada daha çox əmək haqqı almaq, gəlir əldə etmək mümkün olsun. Belə maddi stimulların daha qabarıq şəkildə meydana çıxması məktəbdə aparılan peşəyönümü işinin səviyyəsini aşağı salır, bazar iqtisadiyyatına keçid bu sahədə aparılacaq işləri necə endirir.

Kiçik yaş dövründə şəxsi dəyərlər seçilməyə başlayır, onların emosional şəkildə mənimsənilməsi baş verir. Yuxarı siniflərdə uşaqların əsas psixoloji xüsusiyyətləri stabilləşməyə başlayır. Ona görə də bu səmərəli vaxtı itirmək olmaz. Bu dövrdə gənclərdə gələcək peşə marağının bünövrəsi qoyulmalı, onlara əməyin, zəhmətin əhəmiyyəti aşılanmalı, əməyə, əmək adamlarına hörmət və ehtiram hissi formalaşdırılmalıdır. Təəssüflə qeyd olunmalıdır ki, indiki dövrdə səmimiyyətin tələblərinə uyğun, gənclərin peşə özünütəyininin formalaşmasına nail olmamışıq. Bunun əsas səbəbi məktəb məzunlarının peşə və ixtisaslar haqqında hərtərəfli məlumatların olmaması, məktəblərdə ayrı-ayrı peşələrin pedaqoji və psixoloji təsvirini verən məlumat kitabçalarının yoxluğudur.

Hazırda məktəblərimizdə peşəyönümü işi demək olar ki, tamamilə unudulmuş və şagirdlərin özlərinin marağına tabe edilmişdir. Hazırda müstəqil həyatın astanasında dayanan hər bir gəncin cəmiyyətdə öz yerini tapması məktəb qarşısında duran ən nəcib vəzifələrdən biridir. Onun üçün hər bir gəncin fərdi qabiliyyətinin və bacarıqlarının aşkar edilməsi onların təlim-tərbiyə sisteminin yaradılması məktəb və müəllimlər qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin uğurla həll edilməsi üçün elmi, intellektual potensiala malik nəsil yetişdirmək üçün maksimum şərait yaratmaq lazımdır.

İnkişaf etmiş ölkələrin çoxunda olduğu kimi gənclərin peşəyönümü və peşə seçməyə hazırlanması problemi dövlət səviyyəsində diqqət mərkəzində saxlanılmalı, məktəbdən başlamış yuxarı dövlət orqanlarına qədər bütün səviyyələrdə bu problemə qayğı və diqqət göstərilməli, ona dövlətin strateji vəzifələrindən biri kimi baxılmalıdır.

Məktəblərdə peşəyönümü işinin aşağı səviyyədə olması işçi qüvvəsinin itgisinə, istehsalda tarazlığın pozulmasına əməyə motivasiyanın zəifləməsinə gəncləri həyat səviyyəsinin aşağı düşməsinə, nəticədə mənəviyyatsızlığa səbəb olur.

Cəmiyyətdə baş verən sosial iqtisadi və sosial dəyişikliklər, bazar iqtisadiyyatına keçid çoxlu peşə və ixtisasların meydana gəlməsinə səbəb olmuşdur. Yeni istehsal-mülkiyyət münasibətlərinin beynəlxalq iqtisadi əməkdaşlığın artması, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası, məktəb məzunlarının peşəyönümü işinin müasir tələblər səviyyəsində qurulmasını tələb edir.

Məktəblə yanaşı uşaqların peşəyönümü işində ailənin böyük təsiri vardır. Şəxsiyyətin formalaşmasını ailə təsirini heç nə ilə əvəz etmək olmaz. Ona görə gənclərin tərbiyəsinin bütün vəzifələrini ailədə inkişaf etdirmək üçün onun təsir imkanlarını gücləndirmək mühüm vəzifələrdən biridir. Bunlardan bizi də təlim-tərbiyənin tərkib hissələrindən biri olan şagirdlərin peşə seçiminə hazırlanmasıdır.

Övladlarının gələcəyi üçün narahatlıq keçirən hər bir valideyn uşaqlarının gələcək peşəsinin müəyyənləşməsinə məsuliyyətlə yanaşmalı, müəllimləri ilə müntəzəm əlaqə saxlamalı, övladlarının fənn göstəriciləri və maraqları ilə tanış olmalı, onların peşə seçimində, maraq və qabiliyyətlərini nəzərə almaq, məsləhətlər verməli, təzyiq göstərməməlidir.

**Məqalənin aktuallığı**. Bazar iqtisadiyyatına keçid çoxlu müasir peşə və ixtisasların meydana gəlməsi, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası, şagirdlərin peşəyönümü probleminin müasir tələblər səviyyəsinə qaldırılmasını tələb edir.

**Məqalənin elmi yeniliyi**. Təlim-tərbiyə prosesinin tərkib hissələrindən biri kimi şagirdlərin peşə seçməyə hazırlanması məktəbin qarşısında duran ən vacib məsələlərdən biri olmasıdır

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Şagirdlərin peşələri şüurlu surətdə öz maraqlarına, imkan və qabiliyyətlərinə uyğun seçməsi onların şəxsi gəlirlərini, istehsalatın səmərəliliyini artıran və iqtisadiyyatın artım tempini yüksəldir. Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M. İlyasov. Peşəyönümünün əsasları. Bakı, 2011.
2. Ə. Verdiyeva. Məktəbdənkənar tərbiyə müəssisələrində şagirdlərin Peşəyönümünün məzmunu, forma və yolları. Bakı, 1998.
3. Ş.Zeynalov. Şagirdlərin peşəyönümünün pedaqoji əsasları. Bakı, 1984.

**Ю. Аллахвердиев**

## Профориентация учащихся

## Резюме

В статье указывается что, в связи с переходом на рыночную экономику, появлением новых профессий и специальностей, расширением международного сотрудничества, интеграцией отечественной экономики в мировую экономику о необходимости коренного улучшения профориентационной работы среди учащихся.

**Y. Allahverdiyev**

## Professional orientation of pupils

## Summary

In connection with the transition of our country to market economy new professions and specialties have appeared. The article deals with the task to do in this connation in order to improve the profession guilty of pupils.

**Redaksiyaya daxil olub:** 25.05.2018